# Moldovada ilk dərs COP29-a həsr edilib



Yay tətilindən sonra Moldova Azərbaycanlıları Konqresinin (MAK) bazar günü məktəbində dərslər bərpa olunub.

AZƏRTAC xəbər verir ki, Kişineuda yerləşən məktəbdə ilk zəng çalınıb və çıxışlar edilib.

Bazar günü məktəbi Moldova Azərbaycanlıları Konqresinin təşəbbüsüdür və Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən fəal dəstəklənir. Azərbaycan icmasının 50-dən çox üzvünün uşaqları bu məktəbdə oxuyur, burada ana dilini öyrənir, xalqımızın mədəniyyəti, bədii ədəbiyyatı və tarixi ilə tanış olurlar. Dərslər İon Kryanqe adına Moldova Dövlət Pedaqoji Universitetində keçirilir.

Rəsmi tədbirdə Azərbaycanın Moldovadakı səfiri Ülvi Baxşəliyev, Moldova parlamentinin deputatı Vitali Jakot, Təhsil və Tədqiqatlar Nazirliyi baş katibinin müavini Lyudmila Pavlova, universitetin tədris işləri üzrə prorektoru Luçiya Çepraqa, rumın dili üzrə metodiki dərsliklərin müəllifi Aleksey Aksan, həmçinin Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər.

Azərbaycanın Moldovadakı səfiri Ülvi Baxşəliyev, Moldova parlamentinin deputatı Vitali Jakot, Təhsil və Tədqiqatlar Nazirliyi baş katibinin müavini Lyudmila Pavlova, eləcə də Pedaqoji Universitetin tədris işləri üzrə prorektoru Luçiya Çepraqa şagirdlərə uğurlar arzulayıblar.

Sonra ilk zəng çalınıb və birinci dərs başlayıb. Məktəbin ilk günündə uşaqlar öz tarixi vətənləri ilə həmrəylik nümayiş etdiriblər. Belə ki, Azərbaycanın hər bir məktəbində olduğu kimi, MAK bazar günü məktəbində də ilk dərs noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəfləri Konfransının 29-cu sessiyasına (COP29) həsr olunub.

MAK bazar günü məktəbinin müəllimi Səidə Səfərova şagirdlərə qlobal iqlim dəyişikliyi problemi, iqlim xaosunun qarşısının alınması üçün bəşəriyyətin mümkün səyləri və qarşıdan gələn konfrans haqqında ətraflı məlumat verib.

Azərbaycan.- 2024.- 24 sentyabr (№208).- S.13.